# Multikulturalizm və etnik-dini azlıqlara hörmət Azərbaycan xalqının milli xüsusiyyətidir

Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi İB-in rəhbəri, Beynəlxalq Multikultural Şəbəkənin rəhbəri Dr. Xəyalə Məmmədovanın Özbəkistanın tanınmış "İnside Kashkadarya" sosial, mədəniyyət jurnalının mart nömrəsində "Heydər Əliyev Fondunun vitse-prezidenti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvü Leyla Əliyeva: "Multikulturalizm və etnik-dini azlıqlara hörmət Azərbaycan xalqının milli xüsusiyyətidir" adlı məqaləsi ingilis dilində dərc edilib.




"İki sahil"in məlumatına görə, məqalədə qeyd edilir ki, Heydər Əliyev Fondunun yaradılmasında məqsəd Azərbaycanın zəngin irsinin öyrənilməsi və Ümummilli Liderin qurduğu milli dövlətçilik ideyalarının yeni nəsillərə çatdırılması olmuşdur. Bugünkü müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin adını daşıyan fondun multikulturalizm ideya və dəyərlərinin təbliğinə verdiyi önəm təkcə ölkə daxilində deyil, eləcə də dünyanın hər yerində görünür və kifayət qədər yüksək qiymətləndirilir. Heydər Əliyev Fondunun vitse-prezidenti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvü, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Azərbaycanın mədəni irsinin təbliğində böyük xidmətlər göstərir, onun milli və regional səviyyədə qorunmasını təmin edir. Heydər Əliyev Fondunun qlobal təşəbbüsləri Azərbaycanı dünyada tolerant və multikultural ölkə kimi tanıtmaqdadır. Heydər Əliyev Fondu müxtəlif millətlərin mədəniyyətlərinin və sivilizasiyalarının qarşılıqlı zənginləşdirilməsinə, xalqlar arasında dialoqun dərinləşməsinə xüsusi diqqət ayıraraq tolerantlıq ənənələrinin qorunmasına əhəmiyyət verərək bir sıra layihələr həyata keçirir.

Məqalədə, eyni zamanda, layihələrlə bağlı geniş məlumat verilmişdir. Əsrlər boyu iki dünyanın - Avropa ilə Asiyanın təkcə coğrafi deyil, həm də mədəni baxımdan "kəsişmə nöqtəsində" yerləşən Azərbaycan da hazırda bu gerçəkliklərin dərkinə əsaslanan siyasi kurs yürüdür. Hər zaman mədəniyyətlərarası dialoqda önəmli rol oynayan ölkəmizin bu sahədə uğurları indi daha diqqətçəkəndir. Əlbəttə, gələcəyi bütün dəqiqliyi ilə proqnozlaşdırmaq çox mürəkkəb məsələdir. Amma artıq bir şey şübhəsizdir ki, Azərbaycan reallıqları kontekstində mədəniyyətlərarası dialoqun çox böyük perspektivi var və ölkəmiz bu prosesin əvəzsiz iştirakçısı olmaq iqtidarındadır. Azərbaycana yalnız bu imkanlardan faydalanaraq qloballaşma proseslərinin inkişafına öz töhfələrini vermək qalır ki, məhz bu kontekstdə Azərbaycan rəhbərliyi və vətəndaş cəmiyyəti institutları, ilk növbədə Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi diqqət çəkir. Məqalədə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycan multikulturalizm ideyalarının təbliği baxımından həyata keçirdiyi tədbirləri, eləcə də ölkəmizdə dini tolerantlığı əks etdirən "Azərbaycan - tolerantlıq məkanı" mövzusunda fotoserginin də təşkili ilə bağlı məlumatı diqqətə çatdırmaq olar. Heydər Əliyev Fondu bu gün Azərbaycanın beynəlxalq aləmə inteqrasiyanın sürətləndirilməsində, təbliğində böyük məsuliyyət və şərəflə önəmli layihələri reallaşdırır.

Məqalədə Beynəlxalq Multikultural Şəbəkənin (BMŞ) də məhz dövlət başçısı tərəfindən ölkəmizdə "Multikulturalizm İli" elan olunmasından sonra - 4 mart 2016-cı il tarixində, Dr. Xəyalə Məmmədova tərəfindən yaradılması şəbəkənin işçi heyətinin multikulturalizm üzrə ixtisaslaşmış yerli və xarici elmi tədqiqatçılardan ibarət olması haqqında məlumat verilir.

Məlumat üçün bildirək ki, Beynəlxalq Multikultural Şəbəkə dünyada Azərbaycanın multikultural dəyərlərinin təbliği üçün həyata keçirilən beynəlxalq tədbirlərdə fəal şəkildə iştirak edir, ayrı-seçkiliyə qarşı birgə mübarizə yollarının araşdırılması işinə vətəndaş cəmiyyətinin dəstəyini həyata keçirir. Beynəlxalq Multikultural Şəbəkə, həmçinin Azərbaycanın xalqının multikultural dəyərlərinin beynəlxalq səviyyədə təbliği məqsədilə "Ölkə təmsilçiləri qrupu" təşkil edib. Hazırda 70-ə yaxın ölkədə elmi tədqiqatçı və alimlərdən ibarət xarici ölkə təmsilçiləri fəaliyyət göstərir. Məqalədə, eyni zamanda, Beynəlxalq Multikultural Şəbəkənin Özbəkistan nümayəndəliyi və Özbəkistan təmsilçisi Asror Allahyarov haqqında da məlumat verilmişdir.

İki sahil.- 2021.- 7 aprel.- S.9.